# Əsgər kəməri

(hekayə)



*Vahid Məhərrəmov*

Mövqeyimi dəyişmək istəyəndə ayağıma güllə dəydi. Tibb təlimatçısı əsgər Quliyev vaxtında ilk yardım göstərməsəydi çox qan itirəcəkdim. Hospitala çatan kimi həkimlər məni əməliyyata götürüb gülləni ayağımdan çıxartdılar. Palatada məndən başqa da bir neçə yaralı zabit var idi. Üç gündən sonra çarpayıdan qalxdım. Yaram yavaş-yavaş sağalırdı, özümü yaxşı hiss edirdim.

Hospitaldan çıxan kimi birbaşa xidmət yerimə getdim. Hərbi hissəyə çatanda qaranlıq yenicə düşürdü. Komandir qərargahda yox idi, döyüşə getmişdi. Növbətçidən öyrəndim ki, ermənilər Muğanlı kəndinə hücum ediblər. Silahımı götürüb döyüşə tələsdim. Komandir Daşqın Məmmədovla səngərdə görüşdüm. Vəziyyət ağır idi. Əlverişli əraziləri ələ keçirmiş düşmən Muğanlını daim atəş altında saxlayırdı. Biz isə qazmalara girib güllələrdən yayına-yayına atəş açırdıq. Cəsarətlə vuruşan əsgərlərimiz erməniləri geri oturtmağa çalışırdılar. Həmin gün hücumları dəf etdik. Kəndin işğal olunmaq təhlükəsi sovuşdu. Üç döyüşçümüz ağır yaralandı.

Gecə sakit keçdi, atəş səsləri eşidilmədi. Amma səhəri gün lap ertədən silahlar yenidən "dilə" gəldi. Top-tüfəng gurultusu yeri-göyü başına götürdü. Sakitliyin axşamdan donmuş buzu çat verdi.

Əlverişli yerlərə çəkilib vuruşurduq. Qəflətən səngərimizə mərmi düşdü. Bir zabit yaralandı, iki əsgər şəhid oldu. Şəhidləri və yaralını səngərdən çıxardıq. Düşmən nişangahında olduğundan postu tərk etdik. Ermənilər addım-addım irəliləyirdilər. Vaxt itirmədən geriyə - qərargaha qayıtdıq. Burada xeyli silah-sursat vardı. Onları çıxarmağa vaxt yox idi. Düşmən əlinə keçməsin deyə, komandirin göstərişi ilə silah-sursatı yerə basdırdıq. Fikirləşdik ki, ara səngiyəndən sonra çıxarıb apararıq.

Ermənilər kəndə yuxarı tərəfdən soxulmuşdular. Silah-sursatı torpağa basdırandan sonra vuruşa-vuruşa geri çəkildik. Düşmən Muğanlını yarıya qədər ələ keçirdi. Hündür bir hasarın arxasında mövqe tutub müdafiə olunduq. Ermənilər hücumlarını nə qədər gücləndirsələr də yerimizdən tərpənmədik. Axşama yaxın düşmən bizə toplardan atəş açdı. İki əsgərimiz ağır yaralandı. Onları götürüb geri çəkildik. Kənd ermənilərin əlinə keçdi.

Üç gün mövqe döyüşləri getdi. Silah-sursatımız azlıq edirdi. Arada sakitlik yarananda gecənin qaranlığından istifadə edib bir neçə əsgərlə Araz çayının sahili ilə kəndə girdik. Səhərə qədər yatmayıb basdırdığımız silahları daşıdıq. Sonuncu dəfə Muğanlıdan qayıdanda hava yavaş-yavaş işıqlanırdı. Kolluqların arxası ilə getdiyimizdən düşmən bizi görmürdü. Postlarımıza çatmağa hələ xeyli yol var idi. Gecə yuxusuz qaldığımızdan yorulmuşduq, silahları güclə aparırdıq. Bir az dincimizi almaq istədik. Birdən qulağımıza hənirti gəldi. Kolluğun arxasından səs eşitdiyimiz tərəfə baxanda ermənilərin səngər qazdığını gördük.

Ətrafa diqqət kəsilərək qalın kolluğun arxası ilə geri qayıdırdıq. Səmada quzğunlar uçuşurdu. Yaqub adlı əsgər dedi ki, orada nə isə ölüb, quzğunlar elə-belə uçmazlar. Həmin yerə çatanda bir əsgər meyiti gördük. Şəhid olduğu vaxtdan bir neçə gün keçdiyinə görə sifəti tanınmaz hala düşmüşdü. Üstündə sənədi olmadığından kimliyini dəqiqləşdirə bilmədik. Kəmərinə "Davud" yazılmışdı. Amma bu yazı ilə onun doğrudan da Davud olduğunu dəqiq təyin etmək mümkün deyildi. Ola bilərdi ki, kəməri ondan əvvəl də kimsə taxmışdı.

Şəhidin meyitini aparmaq üçün ya xalça, ya da palaz lazım idi. Həm "iki daşın arasında" onları tapmaq mümkün deyildi, həm də yükümüz ağır idi. Cəsəd açıq vəziyyətdə burada qalsaydı quzğunlar didərdilər. Meyiti basdırmağı, silahları qərargaha çatdırandan sonra hazırlıqlı gəlib onu aparmağı qərara aldıq. Əsgərin kəmərini və silahını özümlə götürdüm. Düşmən yaxınlıqda olduğundan orada ləngimək çox təhlükəliydi.

Qərargaha çatanda gün xeyli qalxmışdı. Əziyyətimiz çox olsa da silahsursatımız düşmən əlinə keçməmişdi. Komandir əsgərin şəhid olduğunu eşidəndə kövrəlib ağladı, əlini zərblə masaya vurub: "Biz mütləq şəhidlərin intiqamını almalıyıq!" - dedi. Sonra cəsədin gətirilməsi üçün tapşırıqlar verdi. Öyrəndik ki, taborda Davud adında dörd əsgər var. Bəs görəsən, şəhid olan onlardan hansı idi? Qərargahda bunu dəqiqləşdirməyə başladılar. Şəhidin meyitini gətirməyə gedən əsgərlər bir göz qırpımında hazır oldular. Taborun həyətindən çıxmaq istəyirdik ki, "həyəcan" siqnalı verildi. Düşmən qəflətən hücuma keçmişdi. Vaxt itirmədən postlara tələsdik. Qanlı döyüş başlandı. Komandirin əmri qəti idi: "Bir addım da olsa geri çəkilməyin!". Muğanlının sakinləri də bizə kömək edirdilər. Qocalı-cavanlı hamı vuruşurdu. Onları görən əsgərlərimiz daha da ürəklə döyüşürdülər. Düşmən atəşi nə qədər gücləndirsə də məqsədinə çata bilmədi. Bütün istiqamətlərdə ermənilərə sarsıdıcı zərbələr vurduq. Ağır itkilər verən düşmənin geri çəkilməkdən başqa yolu qalmadı.

Sakinlər qabaqda gedirdilər. Əsgərlərimiz isə sağ və sol cinahlarla irəliləyirdilər. Komandir rabitə vasitəsilə əməliyyatı idarə edir, döyüşçülərə əmr və tapşırıqlar verirdi. Güllələr vıyıltıyla başımızın üstündən havanı odlayıb keçirdi. Qanlı döyüş səngimək bilmirdi. Topların gurultusundan, avtomatların şaqqıltısından, mərmilərin uğultusundan qulaq tutulurdu. Atəş səslərindən yer-göy titrəyirdi, sanki dünyanın sonu gəlib çatmışdı. Rabitə vasitəsilə xəbər verdilər ki, əsgərlərimiz iki ermənini əsir götürüblər. Bu, yaman yaxşı oldu. Əsirlərdən vacib məlumatlar ala biləcəkdik.

Muğanlı uğrunda döyüş bir neçə gün çəkdi. Kəndi azad etmək üçün həlledici hücum başlandı. Vəziyyət ağır olduğundan əsgərin meyitini gətirə bilmirdik. Tərs kimi ermənilər daha çox həmin istiqamətdən hücumu gücləndirmişdilər. Qəfil həmlələrlə onları geri oturtduq. Kəndi azad etdiyimizə görə hamının üzü gülürdü. Qələbə sevincini heç nə əvəz edə bilməz. Arxaya çəkilən düşmən ertəsi gün yenidən üstümüzə gəldi. Dörd gün Muğanlını işğalçılardan qoruduq. Verdiyi ağır itkilər düşmənin gücünü azaltdı. Erməniləri kənddən xeyli uzağa qovduq. Muğanlının yenidən işğal olunmaq təhlükəsi sovuşdu. Silahlar susdu, aralığa sakitlik çökdü.

Təbii ki, bu sükut müvəqqəti idi. Düşmən hər an hücum edə bilərdi. Qazanılan qələbəyə arxayınlaşmadan döyüşə hazırlaşırdıq. Arada yaranmış sakitlikdən istifadə edib şəhid əsgərin meyitini çıxarmağa getdik. Artıq onun hansı rayondan olduğu bilinirdi, Zərdabdan idi.

Arazın sahilində Davudu basdırdığımız yeri tapdıq. Cəsədi palaza büküb tabuta qoyduq. Çox ağrılı, üzücü bir mənzərə idi. Şəhidin meyitini rayonlarına göndərəndən sonra qərargaha qayıtdıq. Davudun kəmərini otağıma qoymuşdum. Bu, ondan qalan yeganə yadigar idi. Elə həmin gündən şəhid əsgərin kəmərini bayraq kimi başımın üstündən asdım. Hər dəfə onu görəndə düşmənə nifrətim artır, ürəyimdəki intiqam hissi coşurdu.

Hər gün sıralarımıza yeni qüvvələr qoşulurdu. Gələnlərin arasında oğlanlarla bərabər qızlar, qadınlar da var idi. Onlar da döyüşmək istəyirdilər. Qüvvəmiz artandan sonra Muğanlıdan qabağa gedib Baharlı, Xumarlı, İnnablı və Əmirvarlı kəndlərini erməni işğalçılarından azad etdik.

Bir gün xəbər verdilər ki, döyüşə könüllü gələn qızlardan biri məni görmək istəyir. Fikirləşdim ki, yəqin qohumdur, nəyisə bir iş üçün yanıma gəlib. Uzaqdan gələndə gördüm ki, yox, bu qız tanış deyil. Söhbət edəndə öyrəndim ki, Gülnar bir müddət əvvəl Muğanlı kəndi uğrundakı döyüşdə şəhid olmuş Davudun bacısıdır. Gülnar ucaboy, qaraqaş, qaragöz bir qız idi. Elə bir suyu da qardaşına oxşayırdı. Qızın gözlərindən kədər yağırdı. Baxışlarını bir nöqtəyə zilləyən Gülnar dedi ki, düşməndən qardaşının intiqamını almağa gəlib. "Davudu dünyalar qədər istəyirdim. Düşmən gülləsi onu əlimizdən aldı. Qardaşımın ölümü hamımızı yandırıb yaxdı. Bir anda dünya gözümdən düşdü, həyat öz rəngini itirdi. Davud üç bacının bir qardaşı idi. Yalnız ağlayıb sızlamaqla təskinlik tapa bilmirəm. Gəlmişəm ki, düşmənləri məhv edim, qardaşımın yarımçıq qalmış döyüş yolunu davam etdirim." - dedi...

Qızın cəsarətinə, hünərinə heyran qaldım. Sonra Gülnar xahiş etdi ki, qardaşının şəhid olduğu yeri ona göstərim. Arazın sahilinə endik. Davudu ilk dəfə gördüyümüz, sonra qazıb basdırdığımız yeri Gülnara nişan verdim. Qız diz çökdü, hönkürüb ağladı. Yanıqlı səsini eşidəndə mən də göz yaşlarıma hakim ola bilmədim. Çox kədərli məqam idi. Bacı şəhid olmuş qardaşı üçün göz yaşları axıdırdı.

Bir neçə gündən sonra Gülnar hərbi forma geyindi. Davudun kəmərini başımın üstündən götürüb ona verərək:

- Gülnar, bu, qardaşının kəməridir, al belinə tax, - dedim.

Döyüşçü qız kəmərə diqqətlə baxdı. Sevindi, həmişə kədərli olan gözləri güldü. Qardaşının öz əli ilə yazdığı "Davud" sözünü oxudu. Kəməri taxaraq "Ermənilərdən qardaşımın qisasını almayınca bunu belimdən açmayacağam." - dedi.

Silahlarla davranmaq və atəş açmaq qaydalarını öyrənəndən sonra Gülnar da əməliyyatlara gedirdi. Döyüşdükcə təcrübəsi artır, heç kimdən geri qalmırdı. Davudun kəməri həmişə belindəydi.

Döyüşlərin birində Gülnar ayağından yaralandı. İlkin tibbi yardım göstərildikdən sonra onu hospitala çatdırdıq. Döyüşlər bir az səngiyən kimi Gülnara baş çəkdik. Xoşbəxtlikdən güllə dərinə getməmişdi, həyati üçün təhlükə yox idi.

İki həftədən sonra Gülnar tabora qayıtdı. Həmin gün də döyüşə girmək istəyirdi. Ona məsləhət gördük ki, hospitaldan təzə çıxıb, qərargahda qalıb dincəlsin, özünə gəlsin. Amma Gülnar "Nə qədər ki, əlim silah tutur, döyüşüb düşməndən intiqam alacağam" - dedi.

Gördüyüm ilk gündən Gülnarın həm gözəlliyinə, həm də hünərinə vurulmuşdum. Amma düşməndən qisas almağa gəlmiş qıza eşq elan etməyə utanırdım. İstəyirdim ki, vaxt keçsin, zaman ötsün. Çox gözləməyə də səbrim çatmadı. Axır ki, bir gün sözümü ona deyə bildim. Məni dinləyən Gülnar susdu, nə "hə", nə də "yox" dedi. Göz-gözə gələndə utanırdım. Elə bilirdim bu sözləri ona dediyimə görə məni qınayacaq. Çünki Gülnar müharibəyə sevib-sevilməyə yox, qardaşının initqamını almağa gəlmişdi. Bir tərəfdən də fikirləşirdim ki, sevgi heç nəyi gözləmir, onun üçün vaxt, zaman anlayışı yoxdur. Ürəyə, qəlbə hökm etmək, ona "fasilə" vermək mümkün deyil. Vuruldunsa, sevdinsə, istəyini tez bir zamanda dilə gətirməlisən, sevdiyinə bildirməlisən. Sevgini hərbi sirr kimi gizli saxlamaq olmaz. Bir dəfə bu haqda söhbət edəndə Gülnardan sevgimə müsbət cavab aldım. Elə bil dünyanı mənə vermişdilər. Qanadlanıb göylərə uçmaq, qartallar kimi göydə, geniş səmada dolaşmaq istəyirdim.

Atəşkəs elan olunandan sonra gurlayan toplar, şaqqıldayan avtomatlar susdu. Barmaqlar silahların tətiyindən çəkildi. Qıcanmış dişlər boşaldı, silahın nişangahına qıyılmış gözlər açıldı, səngərlərə sükut çökdü. Çox keçmədi ki, könüllüləri ordu sıralarından buraxdılar. Hərbi hissədən Gülnarla eyni gündə çıxdıq. Onu rayonlarına apardım, evlərinə getdik, valideynləri ilə tanış oldum. Sonra qardaşının məzarını ziyarət etdik.

Valideynlərimi Gülnargilə elçi göndərdim. İki aydan sonra toyumuz oldu. Gülnar evimizə gəlin köçdü. Davuddan yadigar qalmış kəməri də özü ilə gətirmişdi. İndi bu kəmər Gülnarla məni bir-birimizə bağlamışdı. Bizi bu kəmərin arasından heç kəs çıxara bilməzdi. Xoşbəxt idim. İlk övladımız oğlan oldu. Adını Davud qoyduq. Sonra iki qızımız dünyaya göz açdı.

Həyətdə oynayan oğlum Davud bir yerdə dayanmadan hey ora-bura qaçırdı. Yaman şıltaq uşaq idi, heç ipə-sapa yatmırdı. Böyük olsa da, hərdən dayısı Davudun kəmərini belinə bağlayırdı. Tay-tuşlarına, "Qəhrəman kəməridi, şəhid kəməridi, dayımın kəməridi" - deyə qürrələnirdi. Gülnarla ona baxanda sevinirdik, ürəyimiz açılırdı. Heç elə bil Davud ölməmişdi, yaşayırdı...